Nazir qonağı səmimi salamlayaraq onun ölkəmizdəki fəaliyyəti dövründə görülən səmərəli işləri, Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində atılan addımları, əldə olunan nailiyyətləri yüksək dəyərləndirib.

Fevralın 15-də təhsil naziri Misir Mərdanov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Hüseyn Avni Qarslıoğlu ilə görüşüb. Nazir qonağı səmimi salamlayaraq onun ölkəmizdəki fəaliyyəti dövründə görülən səmərəli işləri, Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində atılan addımları, əldə olunan nailiyyətləri yüksək dəyərləndirib. Nazir, həmçinin iki ölkə arasında mövcud təhsil əlaqələrinin inkişafı, həyata keçirilən tədbirlər və digər məsələlərdən də söz açıb. Eyni zamanda Misir Mərdanov gələcək perspektivlərdən də danışaraq ortaq bağça-məktəbin açılması məsələsinə də toxunub. Cənab Qarslıoğlu nazirə səmimi qəbul və xoş münasibət üçün təşəkkürünü bildirib. Tarixi, mədəni və iqtisadi baxımdan qurulan əlaqələrdən danışan qonaq təhsil sahəsi üzrə yaradılan əməkdaşlığın dəyərli töhfələr verdiyini diqqətə çatdırıb. Qonaq fəaliyyəti dövründə ona göstərilən diqqət və yardıma görə razılığını da ifadə edib. Eyni zamanda ölkəmizə təyin olunacaq yeni səfirin mövcud əlaqələrin daha da inkişafına çalışacağını əminliklə qeyd edib. Sonda Misir Mərdanov səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb.